***COĞRAFİYANIN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ГЕОГРАФИИ***
***METHODS OF TEACHING GEOGRAPHY***

*UOT 372.891*

# AZƏRBAYCANDA MÜASIR COĞRAFİ TƏDRİS METODLARININ ƏHƏMİYYƏTİ

**Könül Akif qızı Abbasova**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*akademik H. Əliyev adına Coğrafiya İnstitutunun dissertantı*
**ORCID:** 0009-0007-0254-027X
**E-mail:** abbas.k@bk.ru

***Açar sözlər:*** *coğrafiya, tədris, təlim, metod, texnologiya, xəritə, elm.*
***Ключевые слова:*** *география, преподавание, обучение, метод, метод, технология, карта, наука.*
***Key words:*** *geography, teaching, training, method, technology, map, science. technology, map, science.*

Coğrafi təlim metodikasının əsas mahiyyəti müxtəlif metodlardan istifadə etməklə coğrafiya elminin şagirdlərə öyrətmək və mənimsənilməsinə şərait yaratmaqdır. Coğrafi tədris metodikası 3 əsas kəlmənin birləşməsini ifadə edir:

1. Coğrafiya elmi — insan və təbiətin qarşılıqlı əlaqəsinin öyrənilməsi prosesini təmin etmək məqsədilə nəzəri və praktiki biliklərin sistemləşdirilməsidir. Məktəb coğrafiyasının əsas məzmunu fiziki və iqtisadi coğrafiya üzrə qruplaşdırılmışdır.

2. Tədris — coğrafi biliklərin mənimsənilməsi prosesi olmaqla şagirdlərə bu elmin öyrədilməsi üsullarıdır. Müasir dövrdə coğrafiyanın tədris prosesi fəal-interaktiv təlimə əsaslanır. Tədris prosesinin təşkilatçıları olan müəllimlərin pedaqoji-psixoloji bacarıqları olduqca böyük önəm daşıyır.

Metod — Qarşıya qoyulan məqsədə çatmaq üçün üsul və vasitələri əhatə edir. Təlim metodu dedikdə didaktik məqsədə çatmaq üçün istifadə olunan yollar başa düşülür. Coğrafiyanın təlim metodikası müxtəlif fənlərin təliminə əsaslanmaqla 100-dən çox növü vardır. Onlara misal olaraq beyin həmləsi, müzakirə, təqdimat, tədqiqatın aparılması və s. qeyd edə bilərik.

Biliklərin əldə edildiyi mənbəyə görə coğrafi təlim metodları üç qrupa bölünür:

1. Əyani metod — Coğrafi xəritələrdən, modellərdən və digər əyani vasitələrdən istifadə etmək, müşahidələr və təcrübə aparmaqdan ibarətdir.

2. Praktiki metod — Ərazinin yaxud yolun plana alınması, relyefin horizontallarla təsviri, nisbi hündürlüyün ölçülməsi, dərinliyin ölçülməsi, profilin çertyojunun çəkilməsi, çayın orta axın sürətini, en kəsiyinin sahəsini hesablaması və s. nümunə göstərmək olar.

3. Söz metodu — Burada əsas söz mənbəyi sözdür. Müəllimin şərhi (mühazirə, izah, nağıl və s.) müsahibə, ucadan oxu, statistik materiallarla iş, dərsliklər və digər oxu materialları üzərində işlərdən ibarətdir.

Coğrafi tədris zamanı istifadə edilən müxtəlif təlim metodları şagirdlərin fəallığını artırmaqla diqqətin yayınması, yorğunluğun qarşısını alır. Təlim metodlarının seçilməsi qarşıya qoyulan

didaktik məqsəddən, müəllimin şəxsi keyfiyyətlərindən, şagirdlərin hazırlıq səviyyəsindən, o cümlədən məktəbin tədris bazasından asılıdır. Təcrübələr göstərir ki, təlim metodlarından təklikdə istifadə edilmir. Adətən eyni zamanda bir neçə təlim metodlarından istifadə etmək məqsədəuyğun hesab olunur. Buna misal olaraq qeyd edə bilərik ki, dərs zamanı hər hansı bir ölkənin coğrafi mövqeyini öyrənmək üçün tətbiq edilmiş müsahibə metodu xəritə üzərində iş ilə birlikdə aparılmalıdır. Əksər hallarda coğrafi təlim zamanı müsahibə, şifahi şərhetmə və xəritə üzərində iş metodu daha müntəzəm istifadə edilir.

**Nağıl** — Hər hansı bir coğrafi obyekt və hadisələrin müəllim tərəfindən söylənilməsi və yaxud təsvirinə həsr edilmiş obrazlı izahdır. Coğrafiya fənninin tədris olunmasında nağıletmənin müstəsna əhəmiyyəti var. Başqa sözlə coğrafiyanın tədris edən zaman şagirdlər bilavastə görmədikləri, müşahidə etmədikləri obyekt və hadisələrlə tanış olurlar. Belə olduğu halda nağıl etmə şagirdlərdə coğrafi təsəvvürlərin formalaşmasında vasitəçi rolunu oynayır.

Coğrafiyanın tədrisi zamanı nağıletmənin iki tipindən istifadə edilir.

1. Aydınlaşdırıcı nağıletmə — Müəllimin izah edəcəyi hər hansı bir coğrafi mövzunu nəzərdə tutulmuş müvafiq proqram materialları üzrə faktiki bilikləri sistematik şərh etməkdən ibarətdir. Qeyd etmək lazımdır ki, adətən məlumatların çoxluğu nəzərdə tutulan proqram materiallarının mənimsənilməsinə maneə yaradır. Bunun üçün nağıletmədə mühüm və lazımi coğrafi əhəmiyyət kəsb edən faktlar deyilməlidir.

2. Təsviri nağıletmə — Bu üsulda coğrafi hadisə və proseslərin obrazlı izahı həyata keçirilir. Buna görə də elmi və bədii ədəbiyyatlardan istifadə etmək, şagirdlərin yaxın səyyahların yol qeydlərinə nəzər salmaq, şəxsi səyahətlər həyata keçirmək, obyektlərlə bilavastə yaxından tanış olmaq, kinofilimləri izləmək, çoxsaylı sorğular keçirmək və digər fəaliyyətlərdə aktiv iştirak etmək müəllim üçün olduqca əhəmiyyətlidir. Lakin tədris zamanı istifadə edilən nəzəri məlumatlar obyekt və hadisənin təsvirini özündə əks etdirməlidir.

Coğrafi tədrisdə adətən aydınlaşdırıcı və təsviri nağıletmə tipləri birlikdə izah prosesini zənginləşdirirlər.

**İzah.** Coğrafi hadisə və prosesləri, coğrafi qanunauyğunluqları şagirdlərə öyrətmək üçün izah metodunun istifadə olunur. Nağıletmə zamanı şərhin emosionallığı və obrazlılığı önəmli olduğu halda izah metodunda şərhin əsaslandırılması, sübutu, müəyyən dəlillərlə isbata yetirilməsi önəm daşıyır.

**Mühazirə** — Daha mürəkkəb şifahi şərh metodu olmaqla adətən geniş mözvuların izah edilməsi zamanı istifadə olunur. Bu metoddan istifadə edən müəllim 35-40 dəqiqə ərzində mövzunu izah edir. Qalan zamanı isə müəyyən suallara cavab verərək ev tapşırığını aydınlaşdırır. Bunun üçün şagirdlərdən müəllimi uzun müddət dinləmək və müəyyən qeydlər aparmaq tələb olunur. Nağıl və izah metodundan fərqli olaraq mühazirə metodunda tədris vasitələrindən yalnız müəllim istifadə edir. Şagirdlərin müstəqil işinin təşkilinə yol verilmir, həmçinin zaman yetərsiz olur. Bunun üçün mühazirə metodundan istifadə edilən dərsin növbəti günündə şagirdlərin müstəqil işinə geniş yer vermək lazımdır.

**Müsahibə** — Əvvəlki bilik və bacarıqlardan istifadə etməklə müəllimin şagirdlərə müəyyən suallar verib cavablar almaqla yeni biliklərin öyrədilməsidir. Düzgün tətbiq edilmiş müsahibə metodunda şagirdlər yüksək fəallıqla çıxış edir, xəritələrdən, coğrafi modellərdən və digər əyani vasitələrdən müstəqil istifadə edirlər. Müsahibə metodu daha əvvəl öyrənilmiş və yeni biliklərin qarşılıqlı əlaqələndirilməsinə imkan verir. Şagirdlərə fərdi yanaşmaq, onların bilik və

bacarıqlarına uyğun sual hazırlamaq təlimin təşkilində əsas rol oynayır. Müəllimin zəif oxuyan şagirdləri xüsusilə nəzərə alıb onlarda dərsə maraq oyatmaq müsahibənin müvəffəqiyyətlə keçirilməsi üçün lazımi şərtdir.

Coğrafiyanın tədrisində müsahibə metodu xüsusilə yeni materialların öyrənilməsi zamanı istifadə olunur. Müsahibənin təşkilində xəritə üzərində iş, qrafiki materiallardan, statistik göstəricilərdən istifadə və digər əyani vasitələrdən istifadə edilir.

Müasir dövrdə təlimin təşkilində interaktiv metod və üsullardan istifadəyə geniş yer verilir. Müasir dövrdə təlimin əsas prinsipləri aşağıdakılardır:

— Şəxsiyyətə yönəlmiş təlim prinsipi;
— İnkişafetdirici təlim prinsipi;
— “Qabaqlayıcı təlim” prinsipi;
— Fəal idrak prinsipi;
— Dialoji təlim prinsipi;
— Təlim-tərbiyə sisteminin çevikliyi prinsipi;
— Əməkdaşlıq prinsipi.

Müasir təlim metodları müəllimdə böyük ustalıq, çeviklik, yüksək işgüzarlıq, yaradıcılıq tələb edir. Dərsi yeni metodlarla keçən müəllim müəyyən hazırlıq işi aparmalı, şagirdlərin bilik və bacarıqlarına bələd olmalı, tədris prosesində şagirdlərin fəallığını təmin etməlidir.

Tədrisin təşkilində aşağıdakı üsul və vasitələrdən istifadə etmək məqsədəuyğundur.

— Ümumi diskussiyanın aparılması;
— Şəkillər çəkmək;
— Foto şəkillərdən istifadə etmək;
— Layihələndirmə;
— Ekspert qruplar yaradılması;
— Ümumiləşdirmə və qiymətləndirmənin təşkili;
— Qrafik göstəricilər, sxemlərdən, cədvəllərdən istifadə (Venn diaqramı, konseptual cədvəl, T sxemi);
— Qəzet materiallarından istifadə etmək;
— Kitab üzərində iş (nəqletmə, mühazirə və s.);
— Sualların tərtib edilməsi;
— Kino və videomateriallardan istifadə və s.

Coğrafi təlimdə aşağıda qeyd edilən didaktik məqsədlər əsasında uyğun təlim metodu ilə tədris həyata keçirilir.

— Təsəvvürlərin formalaşdırılması;
— Nəzəri biliyin mənimsədilməsi;
— Bacarıq və vərdişlərin formalaşdırılması;
— Bilik, bacarıq və vərdişlərin yoxlanılması.

Coğrafiya müəllimləri tədris prosesində daima yeni təlim metod və üsulları axtarmalıdırlar. Hazırda müəllimlər müasir texnologiyaları mənimsəyərək təlim prosesinə tətbiq edirlər. Bu da tədrisin keyfiyyətini artıraraq qarşıya qoyulmuş məqsədə daha sürətli çatmağa imkan verir. Lazımı nəticəni əldə etmək üçün informasiya innovasiyalarından istifadə etmək məqsədəuyğundur.

Coğrafiya fənni daha keyfiyyətli tədris olunması müəllimin elmi hazırlığından asılıdır. Təcrübələr göstərir ki, müəllimin təhsil müddətində əldə etdiyi bilik və bacarıqlar mütəmadi artan tələεгbatı ödəmir. Digər tərəfdən coğrafiya elmi müəllimin müntəzəm olaraq məlumatlarını artırmaq, təbiətdə və cəmiyyətdə baş verən dəyişiklikləri tədris prosesi ilə əlaqələndirmək tələb edir.

**Problemin aktuallığı.** Texnoloji inkişaf, cəmiyyətin dəyişkən tələbatlarını nəzə alaraq tədris prosesinin yeni metodlardan istifadəsinə zərurət yaradır. Buna görə də tədrisin təşkilində əsas rol oynayan müəllim bu metodları təhlil etməli, şagird və dərsin mövzusuna uyğun təlim üsullarını təşkil etməlidir. Bunu nəzərə alaraq mövzunun daima araşdırılmasına zərurət yaranır.

**Problemin elmi yeniliyi.** Məqalədə coğrafi tədris zamanı istifadə edilən metodlar, bu metodların özünəməxsus xüsusiyyətləri və müasir dövrdə əhəmiyyəti qeyd edilmişdir.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Tədqiqat zamanı əldə olunan məlumatlar şagirdlər, pedaqoqlar, valideynlər, tələbələr və bu sahədə tədqiqat aparan şəxslər istifadə edə bilər.

## Ədəbiyyat

1. Eldarov N.Ş. Ümumi hissə. Bakı: Qanun, 2008, 192 s.
2. "Təhsil Haqqında" Azərbaycan Respublikasının Qanunu. – Bakı: Hüquq ədəbiyyatı, – 2009.
3. Ümumtəhsil səviyyəsində yeni dövlət proqramları (kurikulumları). – Bakı, 2013.
4. Orta məktəbdə coğrafiya təliminin metodikası. – Bakı: Maarif, – 1978.
5. N.Seyfullayeva və E.Əliyeva. Coğrafiya fənni üzrə təlimin təşkili formaları və üsulları. Bakı, 2009. 493 s.
6. Бардин, К.В. Как научить детей учиться. – Москва: Просвещение, – 1987. 112 с.
7. Загвязинский В.И., Гильманов А. Управление качеством образования: Методич. рекоменд. - Тюмень, 2009. 16 с.
8. Барсов, Н.П. Очерки русской исторической географии. География начальной летописи / Н.П. Барсов. – Москва: Юрайт, 2019. 218 с.

**К.А. Аббасова**

## Важность современных методов преподавания географии в Азербайджане

### Резюме

Основная цель изучения географии – познание процессов, происходящих в природе и обществе. Учитывая меняющиеся запросы общества, студентам необходимы новые методы в процессе обучения. Также, учитывая важность использования технологического оборудования в учебном процессе, необходимо их изучение. Поэтому современные методы географического образования следует изучать как передовую область.

**K.A. Abbasova**

**Importance of modern geographical teaching methods in Azerbaijan**
**Summary**

The main purpose of studying geography is to be aware of the processes occurring in nature and society. Taking into account the changing demands of society, students need new methods in the learning process. Also, taking into account the importance of the use of technological equipment in the educational process, it is necessary to study them. Therefore, modern methods of geographic education should be studied as an advanced field.

**Redaksiyaya daxil olub:** 05.11.2024